**“Ümumdünya Statistika Günü” ilə əlaqədar 16 oktyabr 2015-ci il tarixdə Yasamal Rayon Statistika Şöbəsi tərəfindən keçirilən tədbir.**



BMT-nin Baş Məclisi tərəfindən 2015-ci il 20 oktyabr tarixi “Daha təkmil statistika-daha yaxşı həyat” devizi altında “Ümumdünya Statistika Günü” elan olunmuşdur. Bununla əlaqədar olaraq 16 oktyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Yasamal Rayon Statitika Şöbəsi tərəfindən Yasamal rayonunda fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin iştirakı ilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Yasamal Rayon Statitika Şöbəsinin rəis vəzifəsini icra edən Arif Əliyev Azərbaycanda statistikanın tarixi, əhəmiyyəti və inkişafı barədə danışaraq bildirib ki, 1994-cü il Azərbaycan statistikasının tarixində xüsusi il olmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən 18 fevral 1994-cü ildə “Statistika haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır. Qanunun qəbul edilməsi statistik fəaliyyətin qanuniləşdirilməsinin təmin olunmasında mühüm rol oynadı və Azərbaycan tarixində ilk dəfə olaraq qanunvericiliklə statistika sahəsində əsas parametrlərini müəyyənləşdirdi. Rayon statistika şöbəsinin aparıcı məsləhətçisi Tünzalə Məmmədova Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin beynəlxalq əlaqələrindən, “Forvard Karqo” MMC-nin nümayəndəsi Əfqan Səftərov isə müəssisələrlə yerli statistika orqanlarının qarşılıqlı əlaqədə işləməsindən və rəsmi statistika hesabatlarının elektron formada təqdim olunmasının əhəmiyyətindən danışmışdır.




